Region həyatı

# Qax: Uğurlar gündən-günə artır



**❒ Bütövlükdə respublikamız kimi, ayrı-ayrı bölgələrimiz də sürətlə inkişaf edir və müxtəlif sahələrdə beynəlxalq aləmə çıxış imkanı qazanır. Bölgə müxbiri kimi fəaliyyət göstərdiyim Zaqatala və İsmayıllı rayonlarının sosial-iqtisadi inkişafı barədə yazı qələmə alarkən dəfələrlə həmin məsələləri qabartmışam. Bu il dekabrın 20-də Qaxda keçirilən bir görüşdə isə şahidi oldum ki, öz inkişaf tempini gündən-günə sürətləndirən bu dağlar diyarı da artıq ixrac potensialı ilə dünyaya çıxmaq imkanı qazanıb.**




...Həmin gün İndoneziyanın ölkəmizdəki səfiri Hüsnan Fanani respublikamızın şimal-qərb bölgəsinə səfəri çərçivəsində Qaxda da olmuş, yerli sahibkarlarla görüşmüşdü. Rayon icra hakimiyyətinin başçısı Musa Şəkiliyev səfirə rayonun iqtisadiyyatı, kənd təsərrüfatının aparıcı sahələri, mədəniyyəti, əhalinin məşğulluğu, turizm potensialı barədə geniş məlumat vermişdi. Rayon rəhbəri qeyd etmişdi ki, Qaxda 9 suqablaşdırıcı müəssisə, 5 fındıq emalı zavodu, tikinti materialları istehsal edən müəssisələr, tütün istehsalı və emalı məntəqəsi fəaliyyət göstərir. Aqrar sahədə əldə olunan nailiyyətləri diqqətə çatdıran icra hakimiyyətinin başçısı son 4 ildə taxıl istehsalının 14 min ton artdığını, fındıq bağları sahəsinin 5 min hektar artırılaraq 9,9 min hektara çatdırıldığını bildirmiş, belə tədbirlərin rayon sahibkarlarının istehsal etdikləri ixracyönümlü məhsulların təşviqinə, xarici bazarlara yol tapmasına öz töhfəsini verəcəyinə əminliyini ifadə etmişdi.

Ancaq o tədbirdə mənim diqqətimi daha çox cəlb edən məqam indoneziyalı diplomatın ölkəmiz və Qax haqqında fikirlər səsləndirərkən Sakit okean ölkələrinin adlarını çəkməsi olmuşdu. Ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığın perspektivlərinə toxunan İndoneziya səfiri vurğulamışdı ki, Azərbaycanda istehsal edilən kənd təsərrüfatı məhsullarının, xüsusilə meyvə-tərəvəzin Sakit okean ölkələrinə ixrac edilməsi üçün çox yaxşı imkanlar mövcuddur və qaxlı sahibkarlar da bu imkanlardan yararlana bilərlər.





Həmin tədbirdən sonra Musa müəllimlə söhbətimizdə bilavasitə qaxlı sahibkarların qazandıqları iqtisadi nailiyyətlər barədə daha ətraflı öyrənmək istədim. Həmsöhbətim qeyd etdi ki, nəinki rayonumuzu təmsil edən sahibkarların, eləcə də bütövlükdə Qaxın istənilən uğurunun təməlində dövlət başçısı İlham Əliyevin qayğı və diqqəti dayanır. Cənab Prezident həm 2017-ci ildə, həm də 2018-ci ildə Qaxda olub, bir sıra mühüm obyektlərin açılışında iştirak edib, gələcək fəaliyyətimizin istiqamətlərini müəyyənləşdirən tövsiyə və tapşırıqlarını verib.

M.Şəkiliyev qeyd etdi ki, ötən il dövlət rayonun "Ağyazı" qışlağının ərazisində aqroparkın yaradılması üçün meliorativ tədbirlərə 9 milyon manat, elektrik təminatına 4,7 milyon manat olmaqla, ümumilikdə 13,7 milyon manat investisiya qoyub. Aqroparkın ümumi ərazisi 2094 hektardır. Suvarılan sahə 1268 hektarı əhatə edir. Ərazinin 863 hektarında 28 pivot qurğusu qurulub, 405 hektarında isə "damcılama" sistemi yaradılıb. Əkin sahələrinin davamlı və keyfiyyətli su təminatı üçün aqroparka dövlət investisiyaları hesabına 4,6 kilometr uzunluğunda su xətti çəkilib, tutumu 50 min kubmetr olan beton su hovuzu tikilib, bütün zəruri meliorativ tədbirlər görülüb. Buraya 15 kilometr məsafədən 10 kV-luq elektrik xətti çəkilib, transformatorlar quraşdırılıb. Aqroparka yaxın ərazidən keçən Qax-Qıpçaq-Ağyazı avtomobil yolunda əsaslı təmir işləri aparılıb. Həmsöhbətim xatırlatdı ki, aqroparkın yaradılması üçün meliorativ tədbirlərin reallaşdırılmasında Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadənin xüsusi xidməti olub. Ümumiyyətlə, Əhməd müəllim Qaxın tərəqqisini daim diqqət mərkəzində saxlayır.

Yeri gəlmişkən, rayonda 2018-ci ilin ən mühüm hadisələrindən biri də Qax-Qıpçaq-Ağyazı avtomobil yolunun əsaslı şəkildə yenidən qurulması idi. Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən həyata keçirilən bu yenidənqurma layihəsi 13 məntəqəni əhatə etməklə, 4 min nəfər əhalinin rahat gediş-gəlişini təmin edəcək, nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətində mühüm rol oynayacaq.

Qeyd edək ki, Qax-Qıpçaq-Ağyazı avtomobil yolunun uzunluğu 44,5 kilometr, hərəkət hissəsinin eni 6-7 metrdir. İnşaat işləri zamanı Qax şəhərinin girişində – yolun dağ yamacı hissəsində çay daşından 2250 metr uzunluğunda istinad divarı tikilib. Həmçinin ümumi uzunluğu 69 metr olan iki körpü təmir edilib.

Dövlət başçımızın Qax səfərindən bir neçə gün sonra rayon icra hakimiyyəti səfərin yekunlarına həsr olunmuş geniş toplantı təşkil etmişdi. Həmin tədbirdə Prezidentin Qaxda səsləndirdiyi bütün məqamlar yenidən gündəliyə gətirilmiş, verilən tövsiyə və tapşırıqların yerinə yetirilməsi yolları müəyyən edilmişdi. Məsələn, dövlət başçımız demişdir ki, aqroparkların yaradılması artıq ölkəmizdə dövlət proqramıdır və bu proses geniş vüsət alıb. Ümumiyyətlə, 45 aqroparkın yaradılması nəzərdə tutulur və orada işləyən insanların sayı minlərlə, on minlərlə olacaqdır. Təkcə Qax aqroparkında 100 daimi və 100 mövsümi iş yeri yaradılır. Rayon rəhbərliyi dövlət başçısını əmin edir ki, qaxda yeni iş yerlərinin yaradılması məsələsi daim gündəlikdədir və bu istiqamətdə həyata keçirilən tədbirlər sürətləndiriləcək.





Bundan başqa, son illər Qaxda əhatəli infrastruktur layihələri də icra edilir. Rayon rəhbəri qeyd etdi ki, bu layihələr əvvəlki illərdə də icra olunub. İndi isə həmin tendensiya daha geniş vüsət alıb. Müasir yollar çəkilir, tikinti-quruculuq, abadlıq işləri görülür. Rayonda qazlaşdırmanın səviyyəsi təxminən 70 faizə yaxındır. Beş il bundan əvvəl içməli su, kanalizasiya sistemlərinin istifadəyə verilmişdi. İndi Qax şəhəri və bir neçə kənd 24 saat ərzində təmiz içməli su ilə təmin edilir. Böyük xəstəxana yenidən qurulub, Olimpiya İdman Kompleksi, turizm infrastrukturu yaradılıb və Qaxa gələn turistlərin sayı getdikcə artmaqdadır.

Təbii ki, Qax ənənəvi kənd təsərrüfatı rayonlarından biridir. 2017-ci ildə rayonda tütünçülük, baramaçılıq, fındıqçılıq üzrə respublika müşavirəsi keçirilib və bu sahələrə verilən dəstək öz nəticəsini göstərir. Hesabat materiallarında verilən məlumata görə, fındıq bağlarının sahəsi təxminən 30 faiz genişləndirilib. Üç il qabaq rayonda cəmi 300 hektarda tütün əkilmişdisə, hazırda 600 hektarda tütün əkilir və qurutma kameraları gətirilib quraşdırılır. Baramaçılığa gəlincə, Qax artıq bütün ölkəyə bu sahədə xidmət göstərəcək. Çünki Prezidentin Qax səfəri zamanı açılışı edilmiş Qax Damazlıq İpəkçilik Stansiyasının fəaliyyəti bütün ölkəni əhatə edəcək. Prezident İlham Əliyev Qaxda demişdi ki, əgər üç il bundan əvvəl ölkədə cəmi 200 kiloqram barama tədarük olunmuşdusa, bu il 500 ton barama tədarük edilib və daha da artacaq.

Stansiyanın ərazisində inzibati bina, hər biri ikimərtəbəli olmaqla laboratoriya və inkubasiya mərkəzi, həmçinin hibrid toxumların istehsalı mərkəzi var. Burada, eyni zamanda, baramaqurdu ailələrinin yemlənməsi binası da yaradılıb.



Qax Damazlıq Stansiyasında yeni yaradılmış tut ipəkqurdu cins və hibridlərinin yüksək keyfiyyətli ilkin materialının hazırlanması, çoxaldılması, onların bioloji və texnoloji göstəricilərinin yaxşılaşdırılması, barama toxumu zavodlarının və kümçülərin ipəkqurdunun sənaye qrenası ilə yerli istehsal hesabına təmin edilməsi nəzərdə tutulur.

... Rayon rəhbəri ilə söhbətimizdə qaxlıların 2018-ci ildə qazandıqları sosial-iqtisadi göstəricilər, tikinti-quruculuq və abadlıq işlərinin miqyası, əhaliyə göstərilən xidmətlərin səviyyəsi, təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin fəaliyyətinin müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə çoxsaylı faktlar, rəqəmlər səsləndirilsə də, həmin faktların hamısını bir yazıda əhatə etmək mümkün deyildi. Elə həmsöhbətim də bunu istəmirdi. Amma onun qəzetdə verilməsini istədiyi bir cümlə var idi: "Əminəm ki, qaxlılar 2019-cu ildə daha böyük uğurlara imza atacaq və dövlət başçımızın bütün tövsiyə və tapşırıqlarını layiqincə yerinə yetirəcəklər".

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***